# 60 yaşlı “Bəxtiyar”



Aydın Kazımzadə

**1941-1945-ci illər Böyük Vətən müharibəsi başa çatandan xeyli sonra Sovet İttifaqında xalq təsərrüfatının bərpa olunması, iqtisadiyyatın inkişafı müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda kinoplyonka qıtlığının aradan qaldırılmasına və film istehsalının artmasına səbəb oldu.**

50-ci illərin ortalarından başlayaraq, ilk rəngli bədii-sənədli, “Bəxtiyar”, “Görüş” kinokomediyaları və s. bədii filmlər çəkildi.

“Bəxtiyar” musiqili kinokomediyası (1955) rejissor Lətif Səfərovun ilk tammetrajlı bədii filmidir. Filmin süjeti kinoda təzə olmasa da, yerli şəraitə yaxşı uyğunlaşdırılmışdır. Filmin ssenarisini moskvalı kinodramaturqlardan Boris Laskin və Nikolay Rojkov yazmışlar.

Gözəl və bənzərsiz səsə malik neftçi Bəxtiyar Muradovun həyat tarixçəsini ekranda canlandıran bu musiqili kinokomediya yarım əsrdən artıqdır ki, ekranlardan düşmür. Bunun bir neçə səbəbi vardır. Birincisi, tamaşaçılar kinokomediyalara, xüsusən də musiqili kinokomediyalara daha çox üstünlük verirlər. Ələlxüsus da musiqili filmin bəstəkarı, görkəmli sənətkar Tofiq Quliyev ola. İnsanın ruhunu təzələyən, qəlbini oxşayan, adamlarda xoş əhval-ruhiyyə oyadan ecazkar Tofiq Quliyev musiqisi. Bəstəkarın özünəməxsus bədiiliyi, lirizmi və orijinal melodizmi ilə fərqlənən, sənətkarın ürəyindən süzülüb notlarla köçürülən musiqi parçaları və mahnıları “Bəxtiyar” və digər filmlərin leytmotivinə asanlıqla çevrilir. Onun mahnıları, xüsusilə “Bəxtiyar”da səslənən “Bakı əziz şəhər” mahnısı tamaşaçıya mənəvi zövq verir.

Filmdə Bəxtiyar Ağabalanın köməkliyi ilə qastrol səfərlərinə çıxır. Onu bu səfərlərdə bəstəkarın insanda xoş əhval-ruhiyyə oyadan məşhur “Zibeydə” mahnısı müşayiət edir. Ümumiyyətlə, T.Quliyevin kino musiqisi filmdə baş verən psixoloji vəziyyətləri qabarıq şəkildə tamaşaçıya çatdırır, müəlliflərin fikri ilə üst-üstə düşür.

Təsadüfi deyil ki, xalq musiqisi ilə estrada musiqisinin sintezindən yaranmış və özünəməxsusluğu ilə seçilən lirik mahnılar bir müddətdən sonra filmlərdən ayrılaraq xalq arasında populyarlıq qazanır və müstəqil həyatını yaşamağa başlayır, “Bəxtiyar” filmindəki “Əziz dost”, “Zibeydə”, “Bakı əziz şəhər” və s. nəğmə və melodiyalar bu gün də el içində, televiziya və radio dalğalarında səslənir, insanlara sevinc bəxş edir.

İkinci səbəb, L.Səfərovun maraqlı rejissor işidir. O, bu filmdə qəhrəmanlarının mənəviyyatını və psixoloji əhval-ruhiyyələrini açmağa müvəffəq olmuş, komik və lirik süjet xətləri ilə hadisələrin rejissor yozumunu göstərə bilmişdir. L.Səfərov ayrı-ayrı epizodlarda (Rzanın pianino çalması, Ağabalanın “Kirpi” jurnalına düşməsi, Bəxtiyar konsert vaxtı fit səsinə kəskin reaksiya verməsi və s.) kadrın, təsvirə daxil olan materialın kompozisiyasını bədii əsərin əsas hissəsinə çevirə bilmişdir.

Üçüncü səbəb, “Arşın mal alan” musiqili komediyasından (1945) sonra məşhurlaşan istedadlı müğənni və aktyor Rəşid Behbudovun bu filmdə baş rolu ifa etməsi, ecazkar səsi ilə ruhumuzu oxşayan, bizə mənəvi qida verən, bizi xoş işlər görməyə, yaxşı əməllərə səsləyən, bənzərsiz səsə malik Rəşid Behbudovun vokal ifasıdır.

Nizami, Üzeyir Hacıbəyli və Bülbül. Bu üç dahi sənətkarın birgə işi olan bəzi məşhur mahnılara elə bir möhür vurulub ki, həmin mahnıları bir qeyri müğənni oxuyanda qulaqlarımızda xaric səslənir. Lakin dünya şöhrətli sənətkarlarımızdan Rəşid Behbudov və Müslüm Maqomayevin də öz orijinal ifa tərzləri, özünəməxsus yüksək ifaçılıq dəst-xətləri vardır.

“Bəxtiyar” filmində Rəşid Behbudov “Sevgili canan”ı ifa edir. Özü də necə oxuyur. Sözün həqiqi mənasında tamaşaçının qəlbini fəth edir. Çünki Rəşid sənəti zirvədir, Rəşid əvəzsizdir, Rəşid Azərbaycanın simvoludur.

Dördüncü səbəb. Filmdə gözəl aktyor ansamblının – Ağasadıq Gəraybəyli (Ağabala), Məmmədrza Şeyxzamanov (professor Rəcəbov), Münəvvər Kələntərli (Gülzar), Sona Hacıyeva (Zəhra), Ağahüseyn Cavadov (Rza), İsmayıl Əfəndiyev (İsmayılov), Lütfi Məmmədbəyov, Müxlis Cənizadə (Bəxtiyarın dostları), Faiq Mustafayev (Yusif), Fateh Fətullayev, Sofa Bəsirzadə və Yusif Vəliyev (Komissiya üzvləri), Tamara Çernova (Saşa), Tatyana Peltser (Tatyana Alekseyevna) və başqalarının süni pafosdan uzaq təbii oyunlarıdır.

Bu filmin ikinci rejissorları İsmayıl Əfəndiyev və Əjdər İbrahimovdur. Filmdə çoxlu mahnılar səslənir. Mahnıların mətnlərini Rəsul Rza, Ənvər Əlibəyli, N.Dorizo və K.Simonov yazmışlar.

“Gənc Bəxtiyar öz məlahətli səsilə konservatoriyanın professoru Rəcəbovun diqqətindən yayınmır. Lakin Bəxtiyar valideynlərinin yolu ilə gedərək neftçi olur. İş elə gətirir ki, o, hər şeydə mənfəət axtaran fırıldaqçı, əsl incəsənətdən uzaq olan klub müdiri Ağabala ilə rastlaşır. Ağabala Bəxtiyarı estrada müğənnisi eləmək məqsədilə onun çıxışlarını təşkil edir, bu yolla çoxlu pul qazanır. Nəhayət, Bəxtiyar müğənniliyin böyük sənət olduğunu başa düşüb, bu işlə ciddi məşğul olmağa başlayır.

Bu filmdə zərb-məsələlərə çevrilmiş, yadda qalan səhnələr çoxdur. Məsələn, restoranın solisti Mehdi Kazımov səhnənin arxasına keçib qışqırır: “Pulumu kim verəcək, pulumu verin”. Daha bir misal, Saşanın Moskvadan qayıtması ilə əlaqədar mağaza müdiri Yusifin şampan şərabı gətirməsi və şampan şüşələrindən birinin qapağının öz-özünə açılmasını görən nənə deyir: “Yusif partladı”.

Bu gün el arasında tez-tez eşidilən “Çıxış edir Hüseynova bacıları” ifadəsi dillər əzbəridir. Hüseynova bacıları – Sona Hacıyeva və Münəvvər Kələntərli elə koloritli, canlı səmimi obrazlar yaradıblar ki, bu obrazlar neçə onillərdir ki, tamaşaçıların gözləri qarşısından keçib getmir. Hər dəfə də bu personajları ekranda görəndə onlarda yeni-yeni ştrixlər kəşf edirik.

Filmdə mədəniyyət evinin müdiri Ağabala rolunda Ağasadıq Gəraybəyli oynayır. Aktyor bu obraza xas olan cizgiləri düzgün tapdığı üçün onun qəhrəmanı tamaşaçıda bütün film boyu gülüş doğurur, ona baxanda həyatda gördüyün ağabalalar yada düşür. Çox təəssüf ki, yarım əsr keçəndən sonra da ağabalaların sayı azalmayıb.

A.Gəraybəyli bu rolu haqqında xatirələrində belə yazmışdır: “Bəxtiyar” filmindəki Ağabala və “O olmasın, bu olsun” kinokamediyasındakı Rüstəm bəy surətləri yaradıcılığımda xüsusi yer tutur. Mən filmdə Ağabalanı öz xeyrini güdən, çox hiyləgər və ikiüzlü adam kimi təsvir etməyə çalışmışam. Onun qəlbi o qədər qara, əməlləri o qədər çirkindir ki, hər addımda kimi isə aldadır, kimdən isə zərbə gözləyir.

Filmdə belə bir səhnə var. Mədəniyyət evinin müdiri Ağabala eşidəndə ki, komissiya gəlib özfəaliyyətdə iştirak edən neftçilərin çıxışlarına baxmaq istəyir, tez işçilərini göndərib, bura peşəkar aktyorları çağırtdırır. Eşidəndə ki, gecikən aktyora əvvəlcədən pulu ödənilib hirslə işçilərinə deyir: “Adə, adam da artistə əvvəlcədən pul verər”. Mənim təklifimlə həmin epizoda daxil edilmiş bu ifadə tamaşaçıda gülüş doğurur, obrazın daxil aləminin natəmizliyini bir daha üzə çıxarır”.

Həm də bu ifadə xalqın arasında zərbməsələ çevrilmişdir.

Filmdə komik situasiyalar çoxdur. Həm də rolları o qədər də böyük olmayan, lakin hər dəfə kadra daxil olarkən öz hərəkətləri, məzəli danışıqları ilə tamaşaçıda xoş əhval-ruhiyyə oyadan personajlar vardır. Ağabalanın yanında işləyən və heç bir şeyə yaramayan qohumları, mədəniyyət evinin işçiləri – Zəhra və Gülzar Hüseynova bacılarını ifa edən aktrisalardan Sona Hacıyeva və Münəvvər Kələntərli olduqca maraqlı surətlər yaratmışlar. Hüseynova bacılarının dueti – “Babam evlənir” mahnısı bu gün də xoş təbəssümlə qarşılanır.

Azərbaycanın xalq artisti Sofya Bəsirzadə həmin epizodu belə xatırlayırdı: “Özfəaliyyət dərnəyi üzvlərinin komissiya tərəfindən yoxlanması epizodu Neftayırma zavodunun klubunda çəkilirdi. Münəvvərlə Sona Hacıyevanın səhnədə oynayıb oxumaları ssenaridə başqa cür təsvir olunmuşdu. Ona görə də filmin rejissoru Lətif Səfərov əvvəlcə işin nə yerdə olduğunu bilmədi, bir qədər əsəbiləşdi də.

Biz, yəni komissiya üzvləri, həmin səhnəyə baxdıqca gülməkdən uğunub gedirdik. Heç cürə ciddi vəziyyət ala bilmirdik. Ona görə də operator Arif Nərimanbəyov istəyinə nail olmaq üçün bizim səhnəni düz altı dubl çəkməyə məcbur oldu”.

Filmdə Bəxtiyar – Rəşid Behbudov klub səhnəsində komissiya qarşısında çıxış edərək dərin lirizmi ilə seçilən “Üzüyümün qaşı firuzədəndir” mahnısını dərin şövqlə ifa edir.

Bu mahnının tarixçəsi də maraqlıdır. “Bəxtiyar”dan əvvəl “Üzüyümün qaşı” adlı bədii film istehsala buraxılmışdı. Filmin rejissoru Həsən Seyidbəyli idi. Lakin filmin istehsalı nəyə görəsə yarımçıq qaldı. Və film ümumiyyətlə çəkilmədi. Həmin gözəl “Üzüyümün qaşı firuzədəndir” mahnısı o filmdən “Bəxtiya”a köçdü, beləliklə də, öz layiqli yerini tutdu.

Bu filmin kadrarxası başına gələn qəribə əhvalat haqqında məlumat vermək istəyirəm. Filmin quruluşçu rejissoru L.Səfərov dönməz xarakterə malik sənətkar idi. O, heç kəsin qarşısında əyilmir, saxta işlərə göz yummur, ümumittifaq miqyasında keçirilən iclas və konfranslarda mövcud nöqsanlar barədə öz sözünü deməkdən çəkinmirdi.

Qəribə də olsa rejissor L.Səfərov “Bəxtiyar” filmini çəkməyə hazırlaşanda ona bədii filmlər rejissoru adı hələ də verilməmişdi. Bununla əlaqədar Azərbaycan mədəniyyət nazirinin müavini 1954-cü ildə SSRİ Mədəniyyət Nazirliyinin Baş Kinematoqrafiya İdarəsinə göndərdiyi məktubunda xahiş edir ki, L.Səfərova rejissor adı verilsin. Məktubda deyilirdi: “L.Səfərov yoldaş 1950-ci ildə institutu qurtərarkən ona bədii filmlər üzrə I dərəcəli rejissor assistenti ixtisası verilmişdir. Halbuki instituta daxil olarkən onun bədii filmlər üzrə II dərəcəli rejissor assistenti ixtisası var idi... Bakı kinostudiyasının attestasiya komissiyasının müvafiq qərarı ilə hələ 1951-ci ildə rejissor adını almaq üçün sənədlər təqdim edilmiş, lakin məsələ bu günə kimi həll edilməmişdir”.

Bu məsələ hələ öz həllini tapmamış L.Səfərovun qarşısına daha bir çətinlik çıxdı: filmin çəkilişi prosesində qrupun üzvlərinə hədə-qorxu gəlirdilər ki, işi yarımçıq qoysunlar. Bu barədə filmin ssenari müəlliflərindən biri, yazıçı N.Rojkovun Azərbaycan mədəniyyət nazirinə göndərdiyi məktubda ətraflı bəhs olunur: “Azərbaycan kinematoqrafiyası tarixində ilk dəfə Dövlət Kinematoqrafiya İnstitutunun məzunları olan azərbaycanlılardan ibarət çəkiliş qrupu yaradılmışdır. Bunlar rejissor L.Səfərov, operator A.Nərimanbəyov, II rejissorlar Ə.İbrahimov və T.Tağızadə, rəssamlar C.Əzimov və E.Rzaquliyevdir. Gözləmək olardı ki, qrupun ətrafında etibarlı və xeyirxah abı-hava şəraiti yaradılacaq. Lakin bu, Bakı kinostudiyasında baş vermədi. Qrupun üzvlərini qorxudur, filmin müvəffəqiyyətsizliyə uğrayacağını qabaqcadan xəbər verirdilər. Bəzən qrupun əməyini açıq-açığına heçə endirirdilər. Aktyor sınaq çəkilişləri üçün lazım olan Əsgərin (sonradan Bəxtiyarın - A.K.) otağının adi dekorasiyası 28 günə tikilmişdir. Qrupdan olan yoldaşlar müdriyyəti xəbərdar etmişdilər ki, dekorasiya pis və qeyri-peşəkarlıqla tikilir. Lakin heç kim xəbərdarlıqlara əhəmiyyət vermədiyi üçün nəticədə yaramaz bir qurğu hazırlanmışdır. Onun döşəməsi tərpəndiyinə görə üstünə kinokameranı qoymaq belə mümkün deyil... Əgər siz rejissor L.Səfərovun qrupuna bu dəfə normal şəraitdə işləmək üçün tədbir görməsəniz “Mahnı ilə eldən-elə” kinofilmi (“Bəxtiyar” filminin əvvəlki adı - A.K.) olmayacaqdır. 18 iyun 1954-cü il”.

Yaradılan bütün bu süni maneələrə baxmayaraq L.Səfərov ruhdan düşmür, həvəslə işləyir, nəhayət, filmi çəkib başa çatdırır. “Bəxtiyar” musiqili filmi Sovet İttifaqının ekranlarında uğurla nümayiş etdirilir.

Yazıçı H.Abbaszadə “Sevimli mahnı” məqaləsində yazmışdır: “Əsasən ssenaridən gələn ayrı-ayrı nöqsanlarına baxmayaraq film bütövlükdə uğurludur və artıq tamaşaçıların rəğbətini qazanmışdır”.

“Bəxtiyar” musiqili kinokomediyası artıq 60 ildir ki, ekranlarda mütəmadi olaraq nümayiş etdirilir.

